*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 aprel 2015-ci il № 24 (1940) Qiyməti 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bu gün bizim ordumuz təmas xəttində vəziyyətə tam şəkildə nəzarət edir

***Həmişə olduğu kimi, bu dəfə də səngərə - Vətən oğulları ilə görüşə yollanıram. Yolum tarixi Ağdam yurdunadır. Qatarda yol yoldaşım olan Hamlet Quliyevlə hal-əhval tutduqdan sonra söhbətə başlayırıq. Məlum olur ki, ehtiyatda olan polis kapitanıdır. 1993-cü ildə Ağdam uğrunda gedən döyüşlərdə iştirak edib. Müharibədən, o dövrün ağrılı-acılı günlərindən danışan keçmiş döyüşçü Ağdamın tarixi əhəmiyyətindən də danışır...***



Ağdam Azərbaycanın qədim və böyük tarixə malik rayonlarından biridir. Respublikamızın həyatında həm iqtisadi, elmi potensialına, həm də insanların fədakarlığına görə bu bölgə həmişə fərqlənib. Respublikanın inkişaf etmiş kənd təsərrüfatı rayonlarından biri olub.

Ümummilli liderimiz Heydər Əliyevin hələ ötən əsrin 70-ci illərindəki uğurlu fəaliyyəti Ağdamın dirçəliş illəri kimi yaddaşlardadır. Məhz ulu öndərin məqsədyönlü siyasəti nəticəsində Ağdam özünü Qarabağın məğrur qalası kimi tanıdıb.

Yolboyu ətrafıma baxır, buralarda gedən döyüşləri, Hamlet dayının danışdıqlarını gözümün önündə canlandırıram. Tarix boyu bəlalar çəkən Azərbaycanımızı düşünür, qəlbimdə mənfur qonşularımıza intiqam hissi baş qaldırır.

Hərbi hissəyə çatanda öncə zabit Vəfadar Bayramovla görüşürəm. Təcrübəli zabit söhbətimizdə düşmən qarşısında əzmlə dayandıqlarını, hər an müharibəyə hazır olduqlarını bildirərək deyir:

- Şəxsi heyət yüksək əhval-ruhiyyədədir. Bu gün orduya diqqət və qayğı hamımızı ruhlandırır. Hər birimiz çalışırıq ki, Vətənimizin müdafiəsində dayanmış şəxsi heyətin ovqatı xoş olsun. Ölkə və ordu rəhbərliyi də müntəzəm olaraq cəbhə bölgələrində xidmət edən şəxsi heyətin qayğılarını, sosial-məişət şəraitini diqqətdə saxlayır. Danılmaz faktdır ki, əvvəlki illərlə müqayisədə əşya və ərzaq təminatı kəskin surətdə yaxşılaşıb. Bu gün istər səngərdə, istərsə də arxada dayanan əsgər yüksək keyfiyyətli qidalarla təmin edilir. Belə qayğı və diqqət şəxsi heyətin əhval-ruhiyyəsinə müsbət təsir göstərir. Hər bir əsgərimiz daim onu düşünən güclü rəhbərliyin olduğunun fərqindədir.

**(Ardı 2-ci səhifədə)**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2 mart 2015-ci il tarixli Sərəncamı ilə müddətli həqiqi hərbi xidmətə çağırılan və müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılan hərbi qulluqçulara

# Müdafiə nazirinin müraciəti

Yoldaş hərbi qulluqçular!

Bu gün siz həyatınızın ən şərəfli günlərindən birini yaşayırsınız.

Ümummilli liderimiz Heydər Əliyev vaxtı ilə demişdir ki, orduda xidmət edən əsgərlər, borcunu yerinə yetirən gənclər xalqımızın, cəmiyyətimizin içərisində hörmətli, dəyərli insanlardır. Həyatını bu şərəfli peşəyə - ölkəni, Vətəni qorumaq peşəsinə həsr edən zabitlər, hərbçilər Azərbaycan xalqının daim hörmət və ehtiramını qazanacaqlar.

Siz elə bir vaxtda həqiqi hərbi xidmətdən ehtiyata buraxılırsınız ki, bu günlər Azərbaycan Ordusunun qəhrəman döyüşçüləri mövqelərimizə hücum etmiş erməni işğalçı qüvvələrinin layiqli cavablarını verərək rəşadət, cəsarət və peşəkarlıq nümunələri göstərmişlər. İndi hər yerdə Azərbaycan əsgərinin şərəfinə xoş sözlər eşitmək olar. Xalq öz ordusuna inanır və ona güvənir.

Möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev 19 mart 2015-ci ildə Novruz bayramı ilə əlaqədar Bakı şəhərində keçirilən ümumxalq şənliyində çıxış edərkən demişdir: “Bizim əsgərlərimiz Vətəni ləyaqətlə qoruyurlar. Biz tam üstünlüyü əldə etmişik... Bu gün Azərbaycan Ordusu həm hazırlıq, texniki təchizat, silah baxımından dünya miqyasında, dünyanın ən qabaqcıl orduları sırasındadır”.

Bu, siz əsgərlərin xidmətinə ölkə rəhbərliyinin verdiyi ən yüksək dəyərdir. Əminəm ki, siz orduda aldığınız təlim-tərbiyə və təcrübəni mülki həyatda da dövlətimizin qüdrətlənməsinə, orduya vətənpərvər gənclərin hazırlanmasına həsr edəcək, orduda komandirlərin etimadlarını doğrultduğunuz kimi, arxa cəbhədə də valideynlərinizin ümidlərini doğruldacaq, ata-ananıza layiqli övlad, Vətən üçün dəyərli vətəndaş olacaqsınız.

Orduya çağırılan gənclər isə bilməlidirlər ki, əsgər həyatının özünəməxsus çətinlikləri vardır. Lakin öz Vətənini, torpağını, xalqını ürəkdən sevən, hərb elmini, etibar edilmiş silah və texnikanı dərindən öyrənən, komandir və rəislərin əmrlərini layiqincə yerinə yetirən hər bir əsgər bu çətin, lakin şərəfli yolu inamla, uğurla keçəcək və xalqımızın, ölkə rəhbərliyinin hörmət və məhəbbətini qazanacaqdır.

Torpaqlarımızın bir hissəsi düşmən işğalındadır. Qarşınızda duran ən mühüm vəzifə bu torpaqları düşmən əsarətindən xilas etməkdir. Bu vəzifəni uğurla həyata keçirmək üçün siz də Ali Baş Komandanın əmrlərinə hazır olmalı, əsgər həyatının hər anından səmərəli istifadə etməlisiniz.

Xidmətini şərəflə başa vurmuş hərbi qulluqçulara nümunəvi xidmətlərinə görə təşəkkür edir, Vətənə layiqli övladlar yetişdirdiklərinə görə valideynlərə minnətdarlığımı bildirir, gənc əsgərlərə isə hərbi ənənələri uğurla davam etdirərək Silahlı Qüvvələrimizin döyüş salnaməsinə yeni-yeni parlaq səhifələr yazmağı arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

# 31 mart Azərbaycanlıların Soyqırımı günü ilə əlaqədar Müdafiə naziri general-polkovnik Zakir Həsənovun çıxışı

31 mart 1918-ci il, 26 fevral 1992-ci il Azərbaycan tarixinin qanlı səhifələrindəndir. Analoqu olmayan bu faciələr əzəli və əbədi torpaqlarımızın zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətidir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin imzaladığı 1998-ci il 26 mart tarixli Fərmanın ermənilərin, həmçinin, onların havadarlarının Azərbaycan xalqının başına gətirdikləri müsibətlərin həm ölkə, həm də beynəlxalq ictimaiyyətin mühakiməsinə çıxarılmasında çox böyük və əhəmiyyətli rolu vardır.

Həmin Fərmanda qeyd edilir ki, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Tariximizin açılmamış və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış səhifələrindən biri - xalqımıza qarşı törədilən soyqırımı məhz ulu öndərimizin əməyi sayəsində beynəlxalq aləmdə geniş təbliğ olunmağa başlamışdır.

Artıq 17 ildir ki, 31 mart Azərbaycanlıların Soyqırımı günü kimi qeyd edilir.

Mən bu gün soyqırımı qurbanlarının, ağır zamanlarda xilaskarlıq missiyası ilə köməyə gəlmiş türk qardaşlarımızın, eləcə də Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini hörmətlə, ehtiramla yad edir və əmin olduğumu bildirirəm ki, siz qan yaddaşımızın kəsərli silah olduğunu heç vaxt unutmayacaq, tarixin ibrət dərslərindən nəticə çıxaracaq, şəhidlərimizin qisasını alacaqsınız.

Müstəqil dövlətimizin iqtisadiyyatı dinamik sürətlə inkişaf edir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin apardığı həm daxili, həm də xarici siyasət nəticəsində ölkəmizin nüfuzu dünyada günü-gündən yüksəlir, müdafiə qüdrəti daha da möhkəmlənir. Silahlı Qüvvələrimizin şəxsi heyəti döyüş və mənəvi-psixoloji hazırlıqda yeni-yeni uğurlu nailiyyətlər əldə edir.

İşğal altında olan torpaqlarımızın tezliklə azad olunacağı heç kimdə şübhə doğurmamalıdır.

Xalqına, dövlətinə və Prezidentinə güvənən Silahlı Qüvvələrimiz qarşısında duran bütün vəzifələri yerinə yetirməyə hər an hazır və qadirdir.

# Tarixi unutmağa haqqımız yoxdur

***Ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycanlıların Soyqırımı haqqında" fərmanını imzaladığı vaxtdan 17 il keçir. Bu tarixi sənədin XX əsrdə - 1905-1906, 1918-1920, 1948, 1953, 1988, 1992-ci illərdə ermənilərin və onların yaxın havadarlarının xalqımıza qarşı apardığı soyqırımı və deportasiya siyasətinin dünyaya çatdırılmasında rolu xüsusilə əhəmiyyətlidir.***

1918-ci ildə türk-müsəlman əhalisinə qarşı törədilən cinayətləri üzə çıxarmaq ancaq Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndən sonra mümkün olur. Belə ki, Milli hökumətin ən mühüm qərarlarından biri - daşnak canilərinin törətdikləri cinayətlərin təhqiqi üçün 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması olub. Hökumətin iclasında Xarici işlər naziri M.H.Hacinski bu məsələ barəsində çıxışında qeyd edirdi ki, 4 aydır erməni cəlladları dinc müsəlman əhalisinin həyatı və əmlakı üzərində görünməmiş vəhşiliklər törədirlər. Beynəlxalq aləmə əsl həqiqətlərin çatdırılması üçün belə bir təşkilatın yaradılmasına böyük ehtiyac hiss olunur. Həmin təşkilat fövqəladə komissiya xarakteri daşımalı və bu komissiyanın topladığı sənədlər Azərbaycan, rus, ingilis, fransız, alman dillərində nəşr edilib yayılmalıdır. Vəkil Ələkbər bəy Xasməmmədov (sonralar Azərbaycan Məhkəmə Palatasının sədri olmuşdur) Təhqiqat komissiyasının sədri təyin edilir. Bir neçə ay ərzində Fövqəladə Təhqiqat Komissiyası daşnak-quldur dəstələrinin qanlı əməllərinin təhqiqi sahəsində xeyli iş gördü. Zərər çəkmiş minlərlə vətəndaş və şahid dindirildi, çoxlu material, maddi dəlil-sübut, fotosənəd toplandı.

Təhqiqat komissiyasının sənədlərinə əsasən, 1918-ci ilin mart soyqırımı zamanı Bakı şəhərində 11 min nəfərədək türk-müsəlman öldürülüb. Onların çoxunun meyitləri tapılmayıb. Çünki şahidlərin dediklərinə görə, ermənilər meyitləri od-alov bürümüş evlərə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər. Daşnak-bolşevik birləşmələri Bakı camaatından 400 milyon manatlıq daş-qaş və əmlak müsadirə etmiş, xalqımızın bir çox ziyarətgahlarını, tarixi abidələrini dağıdaraq viran qoymuşdular. Uzaqvuran toplarla Təzəpir məscidi zədələnmiş, Bakıda dünya memarlığının incilərindən sayılan "İsmailiyyə" binası yandırılmışdı. Onlar həmçinin, "Kaspi" qəzeti redaksiyasını, "Dağıstan" və "İsgəndəriyyə" mehmanxanalarını yandırmışdılar. "Kaspi" qəzeti redaksiyasında Azərbaycan dilində kitablar nəşr edilirdi. Bina yandırılan vaxt burada Quranın yenicə çap edilmiş 5 min nüsxəsi saxlanılırdı. Onların hamısı yanıb külə dönmüşdü.

1918-ci ilin mart günlərində qədim Şamaxı şəhəri dəhşətli talan və vəhşiliklərə məruz qalır. Burada ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət təhqiqat materialları toplanmışdı.

**(Ardı 2-ci səhifədə)**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bu gün bizim ordumuz təmas xəttində vəziyyətə tam şəkildə nəzarət edir



(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Ordusunun təcrübəli zabitinə görə, bu gün orduda yüksək nizam-intizam var. Hər bir əsgər düşmənini yaxşı tanıyır. Düşməni məhv etmək üçün əlləri tətikdə, gözləri nişangahda Vətəni qoruyur.

Söhbətimizi yekunlaşdırıb qərargahdan səngərə, döyüşçülərimizlə görüşmək üçün yola düşürük.

Taqım komandiri baş leytenant Zellabdin Məmmədov bizi əsgər yataqxanası və döyüşçülərlə tanış edir. Hər bir şəraitlə təmin olunan əsgər yataqxanasına baş çəkdikdən sonra zabitlə döyüş növbəsində dayanan əsgərlərimizin yanına yollanırıq. Döyüş postunda əsgər Azər Muradov bizi qarşılayaraq növbədə olduğu zaman heç bir hadisənin baş vermədiyini məruzə edir.

- Lənkəran şəhərində anadan olmuşam, - deyir əsgər. - 1 ildir ki, hərbi xidmətdəyəm. Xidmət keçdiyim ərazinin relyefinə və coğrafiyasına bələdəm. Nə vaxt hücum əmri verilərsə, torpaqlarımızı azad etmək üçün son damla qanıma qədər döyüşməyə hazıram.



Samir Ağalarov, Kamran Həbibov, Rauf Vəliyev, Elvin Ağayev, Kamran Məmmədrzayev, Şamil Babayev və başqa əsgərlərimizin sözlərinə görə, insan səngərdə Vətən üçün, xalq üçün nə qədər lazım olduğunu dərk edir, üzərinə düşən vəzifələrin, qarşıda dayanan düşmənin fərqindədir. Hər bir əsgər döyüş növbəsini nizam-intizamlı, təlimata uyğun aparır və düşməni diz çökdürməyə qadirdir.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Martın 30-dan aprelin 3-dək Ankara şəhərində (Türkiyə) müdafiənin planlaşdırılması kursu, martın 30-dan aprelin 2-dək Bakı şəhərində Azərbaycan-Pakistan işçi qrupunun 6-cı işçi görüşü, martın 31-dən aprelin 3-dək isə Bakı şəhərində strateji konsepsiyanın işlənib hazırlanması və planlaşdırılması seminarı keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

* * *

***31 mart 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 37 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Şuraabad, Cəvahirli, Şirvanlı, Novruzlu, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

# Azərbaycan və Pakistan arasında ikitərəfli hərbi əməkdaşlıq protokolu imzalanıb

Martın 31-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində Azərbaycan-Pakistan birgə işçi qrupunun növbəti görüşü olub. Görüşdə hər iki tərəfdən yüksək rütbəli zabitlər iştirak ediblər. Müdafiə Nazirliyi nümayəndə heyətinin rəhbəri, Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov öncə qonaqları salamlayaraq bildirib ki, Azərbaycan xalqı tarixi müstəqilliyini əldə edən zaman onu tanıyan ilk ölkələrdən biri Pakistan olub. "Ölkələrimizin dostluq, qardaşlıq və strateji tərəfdaşlıq əlaqələri daim inkişaf edir. İkitərəfli hərbi əməkdaşlığımız isə xalqlarımızın mənafeyinə, regionda təhlükəsizliyin və sabitliyin qorunub saxlanmasına xidmət edir. 11mart 2015-ci il tarixdə iki ölkə başçıları tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" ölkələrimiz arasında davamlı əlaqələrin bariz göstəricisidir", - deyə general vurğulayıb.

Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində pakistanın tutduğu ədalətli mövqeyə görə qonaqlara öz minnətdarlığını çatdırıb. Bildirib ki, Pakistan dövləti ilk gündən Azərbaycanın haqlı mövqeyini dəstəkləyir, işğalçı Ermənistanla heç bir səhədə əlaqə saxlamır. Generalın sözlərinə görə, Azərbaycan da öz növbəsində Cəmmu və Kəşmir münaqişəsində həmişə Pakistanın yanındadır və onun ədalətli



mövqeyini müdafiə edir.

General-mayor Hüseyn Mahmudov Cənubi Qafqaz regionunda cərəyan edən hadisələrdən və Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində aparılan danışıqlardan söz açıb. Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün bütün mövcud imkanlardan istifadə etdiyini və bunun üçün Silahlı Qüvvələrdə ciddi hazırlıq işlərinin görüldüyünü qonaqların diqqətinə çatdırıb.

Pakistan İslam Respublikasının Birləşmiş Qərargahının Xarici Hərbi Əməkdaşlıq Baş İdarəsinin direktoru general-mayor İftixar Vayn isə çıxışında ölkəmizə səfərindən məmnun olduğunu bildirib. Azərbaycan və Pakistanın qardaşlıq əlaqələrinin kökündə tarixi bağlılığın, dini və mədəni əlaqələrin böyük rolunu vurğulayan Pakistan nümayəndə heyətinin rəhbəri Azərbaycanla ikitərəfli hərbi əməkdaşlığın gücləndirilməsi istiqamətində Pakistanın mövqeyinin dəyişilməz olduğunu qeyd edib.

İki gün davam edən görüşdə bir sıra vacib məsələlər də müzakirə olunub. Görüşün sonunda ikitərəfli hərbi əməkdaşlıq barədə protokol imzalanıb. Protokolu general-mayor Hüseyn Mahmudov və general-mayor İftixar Vayn imzalayıblar.

**"Azərbaycan Ordusu"**

***"Hər şey axır, hər şey dəyişir" - qədim yunan filosofu Esxil belə deyib. Hadisələrə ürəyinin gözü ilə baxanlar üçün də belədi. Zamanın bu çağının işləklərini xatırlayanlar, ermənilik qımıldanandan, erməni işğalı boy göstərəndən bəri ömrünü torpaqlarımıza (Vətənə) üzərlik bilənlərimizin - əsgərlərimizin Vətən sevgisini duyanlar, görənlər də "hər şey dəyişir" deyir. Duyanlar duyur, görənlər görür ki, Azərbaycan əsgərinin Vətən sevgisi dəruni sevgidi, bəşəri sevgidi, müqəddəs sevgidi. Bu sevgi Ali Baş Komandanın, Müdafiə nazirinin tövsiyələriylə daha da müqəddəsləşir. Azərbaycan əsgərinin Vətən sevgisi bu anlamda dəyişir. Belə dəyişmə mənəvi kamilliyin təsdiqidi...***

# Vətənin müdafiəsində

Bu, "N" hərbi hissəsində gördüklərimin, duyduqlarımın, eşitdiklərimin işığında o qədər aydınlıqla hiss olunur ki...

Hərbi hissənin divizionu yerləşən əraziyə gedirik.

Yolboyu mayor Həsən Mahmudovun dedikləri ürəyimi dağa döndərir.

- Əsgərlərimizlə söhbətləşəndə sabahlarımızı aydınlığıyla görürəm. İşğaldan azad edilmiş torpaqlarımızda yanan ocaqları, əkilən-səpilən torpaqları, bar gətirən ağacları görürəm. Əsgərlərimizin ən etibarlı silahı Vətən sevgisidi...

Yol uzunu camaatın arxayınlıqla, əminliklə əkin sahələrinə gedib-gəldiyini, çəmənliklərə yayılan qoyun-quzunu görürəm. Yeniyetmələrin mərdanə duruşu mənə qədərsiz könül xoşluğu verir. Bu duruş, bu duruşun söykəndiyi sevgi orduya inamdı.

Bayram ərəfəsidi. Yəhərsiz-yüyənsiz kəhərin yalına yatan yeniyetmə divizionun nəzarət-buraxılış məntəqəsinə çatınca sıçrayıb kəhərindən enir. Əlində iri bir bağlama var. - Novruz payıdı. Əsgərlər bu gün könül xoşluğuyla hələ neçə-neçə kəhərin tanış kişnərtisini eşidəcəklər.

Yol yoldaşımın "Mayor İldırım Ağayev bacarıqlı zabitdir" - təqdimatının işığında görəcəklərimi təxmin eləmişdim. Bir azdan öyrənəcəyik ki, maşınlar istismara tam hazırdı. Düzün ortasında, qərargahdan xeyli aralıda səyyar qaraj misallı tikilidə. Gördüklərim bir həqiqətin təsdiqidir: Azərbaycan Ordusu formalaşmış nizami ordudur, yüksək döyüş hazırlığına malikdir...



Mayor İldırım Ağayev bildirir ki, divizionda döyüş hazırlığı dərsləri əsgərlərin hərbi biliklərinin dərinləşməsində böyük əhəmiyyətə malikdir. Məhz bu baxımdan divizionda dərslərin mühazirə formatında aparılması ilə kifayətlənilmir. Dərsin sonunda tətbiq edilən sual-cavab dəqiqələri metodiki mərhələ kimi səmərəlidir və burda dərslər mütləq şəkildə belə təşkil edilir.

Divizionda artilleriya qurğuları münasib mövqelərdə yerləşdirilib, hədəfləri vurmağa qadirdir. Əsgərlər onların istismar xüsusiyyətlərini mükəmməl mənimsəyib.

Ötən ilin avqustunda təmas xəttində vəziyyət gərginləşəndə, bu qurğular qısa müddətdə mövqelərə çıxarılmışdı. Düşmən geri çəkildiyindən atış aparmağa ehtiyac qalmamışdı.

Mayor İldırım Ağayev deyir ki, o anlarda əsgərlərimizin baxışlarında sezilənləri indi də unuda bilmirəm; döyüş əmri həmişə həyəcan gətirir, ancaq əsgərlərimizin həyəcanından dikələn istəyin istisi çox şey deyirdi...

Taqım komandiri baş leytenant Eldəniz Cəfərquliyev də, baş leytenant Sənan Abdullayev də, əsgər Maşallah Əsədullayev də, kiçik çavuş Nizam Babayev də həmin günü qürur verən duyğularıyla xatırlayır. Maşallah Əsədullayevin dediklərini Azərbaycan əsgərinin sözü bilirəm və qənaətimdə haqlı olduğuma zərrəcə şübhəm yoxdu:

- Bu həndəvərləri ata yurdu bilirik, ata yurdu kimi qoruyuruq. Düşmən mütləq bu yerlərdən qovulacaq və torpaqlarımız işğaldan azad ediləcək. O günə kimi tərxis olunsaq da, olunmasaq da, hamımız əsgərik.

Göy üzünə baxıram. Bura gələndə gördüyüm bulud topası seyrəlməkdədi.

Yadıma bir mahnı düşür: "İgid əsgər, möhkəm dayan!". Könüllərə yazılan o duyğusal mahnı məmləkətimizin ilkin müharibə mahnılarındandı. Bu həzin bəstə zamanında da, indi də əsgərlərimizin könül mahnısı, onların da, bizlərin də düşüncələrinin səyyarəsi olub.

Əsgərin səngərdə möhkəm dayanması Vətənin qorunması deməkdi. Əsgərlər döyüş tapşırığını yerinə yetirməyə gedəndə, bu mahnını Vətənin tapşırığı bilirsə, deməli, möhkəm dayanıb...

Torpağın qayğısına qalmalısan ki, sənə Vətən olsun, Vətənin qayğısına qalmalısan ki, vətəndaş olasan. Vətəndaş olmalısan ki, Vətənin göylərində yad buludlar dolaşmasın...

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

*Əməkdaşımız ezamiyyətdən qayıdıb*

# Döyüşçülərimiz bayramı xoş ovqatla keçiriblər

***"N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsinə yaxınlaşıb özümü təqdim edirəm. Əsgər məruzə etdikdən sonra hərbi hissənin ərazisinə daxil olmağa icazə verilir. Hərbi hissənin həyatində yazın gəlişi açıqca duyulur. Hər yanı fəxarət yerimiz olan göy, yaşıl, qırmızı rəngli bayraqlar bəzəyir...***

- Bahar bayramının gəlişiylə hər yerdə olduğu kimi, hərbi hissəmizdə də canlanma hökm sürür, - deyə hərbi hissənin zabiti Elçin Kərimov bildirir. - Ön xətdə xidmət edən hərbi qulluqçularımız axır çərşənbəni xüsusi qeyd ediblər. Beyləqan rayon mədəniyyət evinin kollektivi əyləncəli konsert proqramı ilə şəxsi heyət qarşısında çıxış edib. Bayram günlərində hərbçilər arasında idman yarışları təşkil olunub, Füzuli, Beyləqan, Ağcabədi, Xocavənd rayonlarının mədəniyyət evlərinin kollektivləri bayram tədbirlərində iştirak ediblər.

Zabit E.Kərimov gedəcəyimiz hərbi hissələri müəyyənləşdirib, bizi yola salır. Yolboyu zabit Vüsal Hüseynov əsgərlərimizin döyüş və mənəvi-psixoloji hazırlıqlarının yüksək səviyyədə olduğunu deyir. Qeyd edir ki, düşmən atəşkəs rejimini pozsa da, mətin döyüşçülərimizin cavab atəşi ilə dərhal susdurulur.

Maşın ön xəttə yaxınlaşdıqca 21 il öncə bu ərazilərdə ordumuzun keçirdiyi uğurlu döyüş əməliyyatlarını xatırlayıram. O zaman ağır məğlubiyyətə uğrayan erməni işğalçıları atəşkəs müqaviləsini imzalamağa məcbur olmuşdular.

Biz tank taborunun yerləşdiyi əraziyə daxil olanda idman yarışlarında iştirak edən hərbçilərin məşq etdiyini görürük. Əsgər yeməkxanasında Novruz azuqələri stollara səliqə ilə düzülüb. Hərbi hissənin aşpaz xanımları bayram süfrəsi üçün milli xörəklərin hazırlığı ilə məşğuldur. Bir sözlə, şəxsi heyət əsl bayram əhval-ruhiyyəsindədir.

Peşəkar tankçılarımızdan baş leytenant Ziya Novruzov, baş leytenant Məftun İbrahimov, kiçik leytenant Mehdi Pircanov, əsgərlər - Vüsal Quliyev, Teymur İsmayılov, Şücaət Hüseynov, Elsevər Əsgərli, Vamiq Qurbanov, Elçin Süleymanov və digərləri Böyük Vətən müharibəsi illərində cəbhədə qəhrəmanlıqlar göstərən məşhur həmyerlimiz, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun davamçılarıdır. Onların hər biri Qarabağ döyüşlərində qəhrəmanlıq tarixi yazan ordumuzun ilk tankçılarından Azərbaycanın Milli



Qəhrəmanları - Albert Aqarunovun, Şövqiyar Abdullayevin, "Azərbaycan Bayrağı" ordenli Qabil Süleymanovun fədakarlıqlarını davam etdirmək əzmindədir.

Bir azdan tankçılarımızla sağollaşıb təmas xəttinə - Vətən müdafiəçilərinin qərar tutduğu səngərlərə yollanırıq. Vətən sərhəddən başlanır, deyirlər. Ancaq bura Vətənimizin sərhədi deyil, 20 ildən artıqdır ki, erməni cinayətkarları ərazilərimizi işğal altında saxlayırlar.

Bizə hərbi hissədə bildirirlər ki, Füzuli rayon mədəniyyət evinin kollektivi əyləncəli konsert proqramı ilə şəxsi heyət qarşısında çıxış edərək hərbçilərimizə xoş ovqat aşılayıb. Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri şəxsi heyətlə görüşə gələn qonaqlar sırasında idilər. A.Alıyev Silahlı Qüvvələrimizin müasir texnika və silahlarla təchizatından, orduda peşəkarlığın artmasından və xalqla ordunun sarsılmaz birliyindən danışır. - Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin cəbhə bölgəsində yerləşən rayonlara səfərləri, ordu rəhbərliyinin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ön xətdə hərbçilərlə görüşləri, irimiqyaslı hərbi təlimlər düşmən üzərində qələbəmizin təminatına əminlik yaradan amillərdir, - deyə A.Alıyev bildirir.

- Milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunmasında belə tədbirlərin rolu böyükdür, - deyə zabit Şükür Həmidov söhbətə qoşulur. - Birinci çərşənbənin başlandığı gündən indiyədək rayon ictimaiyyəti hərbçilərin qonağıdır. Ordumuz xalqa, xalq ordumuza güvənir. Bütün bu keçirilən görüşlər ordu ilə xalqın birliyinin göstəricisidir.

Sonra yenicə inşa edilən müasir əsgər yeməkxanasında şəxsi heyət üçün hazırlanan bayram süfrəsinə dəvət edilirik. Stollara səmənilər qoyulub, süfrələrə cürbəcür bayram şirniyyatları düzülüb. Bizi qarşılayan maddi-texniki təminat üzrə zabit Fərman Rəhimov ağ xalatlı yeməkxana işçilərini, aşpaz xanımları göstərib deyir ki, hazırda ordumuzda aparılan geniş islahatlarla əlaqədar yeməkxana işlərinə üç növbəli 32 nəfərdən ibarət qulluqçu vəzifəsinə qadınları cəlb etmişik. Bu gün təcrübəli aşpaz xanımlar şəxsi heyət üçün bayram süfrəsinə milli xörəklər hazırlayıblar.

Bizimlə eyni süfrədə əyləşən 2 hərbçi xanım - kiçik çavuşlar Sahilə Mikayılova və Aliyə Bəhlulova Azərbaycan Ordusunda xidmət etmələrindən qürur duyduqlarını bildirirlər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Tarixi unutmağa haqqımız yoxdur

(Əvvəli 1-ci səhifədə)

1919-cu il martın 30-da "Azərbaycan" qəzetində Fövqəladə Təhqiqat Komissiyasının "çağırış"ı dərc edilib. Komissiyanın sədri Ə.Xasməmmədovun imzaladığı bu sənəddə deyilirdi: "Şamaxının yalnız xarabalıqları qalmışdır. Məscidlərin ən qədimi, 800 ildən çox tarixi olan Cümə məscidinin ancaq yanıb qaralmış minarələri görünür, şəhərin on beş minlik müsəlman əhalisindən sağ qalanlar bütün Zaqafqaziyaya dağılmışlar, əllərində qoltuq ağacı və bellərində torba qapı-qapı düşüb dilənirlər ki, acından ölməsinlər. Adlarını "bolşevik" qoyan qaçaq-quldur dəstələrinin əlindən qaçıb can qurtaran əhalinin qalan hissəsi türk qoşunları Azərbaycana gəldikdən sonra öz el-obalarına qayıtmışdır. Onlar qayıdıb gəldikdə əsrlərdən bəri yaşadıqları ocaqlarını yandırılmış və yerlə-yeksan edilmiş halda görmüşlər".

Fövqəladə Təhqiqat Komissiyasının Şamaxı qəzası üzrə apardığı təhqiqatların yekun aktlarında dəymiş ümumi zərərin miqdarı göstərilmişdir. Bu aktlarda olan rəqəmlərə əsasən, Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 azərbaycanlını qətlə yetiriblər. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olub. Bu kəndlərə dəyən



ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,5 milyon manat olub.

Bolşevik-daşnak birləşmələri Şamaxını işğal etdikdən sonra Quba qəzasına daxil olur. 1918-ci il mayın 1-də Qubaya basqın edən daşnak-bolşevik qoşunlarının heyətinin sayı 5 mindən artıq olub. Onlar dinc əhaliyə vəhşiliklə divan tuturlar. Həmin vəhşiliyin miqyasını təsəvvür etmək üçün 2 gün ərzində yalnız Quba şəhərində 4 minədək müsəlmanın öldürüldüyünü xatırlamaq kifayətdir. Bu rəqəm Quba şəhər əhalisinin beşdə biri demək idi.

Quba soyqırımının əsas təşkilatçısı və rəhbəri olan daşnak Amazaspın vəhşilikləri nəticəsində 1918-ci ilin ilk beş ayında qəzada üst-üstə 16 mindən çox insan məhv edilib. Daşnak-bolşevik birləşmələri Quba qəzasında 162 kəndi dağıtmışdılar ki, bunlardan 35-i hazırda mövcud deyildir. Ümumiyyətlə, 1918-1920-ci illərdə bolşevik-daşnak birləşmələrinin törətdikləri qətliamların, soyqırımı aktlarının coğrafiyası genişdir. Kürdəmir, Ağsu, Göyçay, Lənkəran, Qarabağ, Zəngəzur, Qərbi Azərbaycan torpaqlarında törədilən talan və vəhşiliklərin statistik göstəriciləri Fövqəladə Təhqiqat Komissiyasının arxiv sənədlərində tam əks olunub.

Vaxtı ilə qırğınlara erməni kilsəsindən xeyir-dua alan təşkilatçı daşnaklar - Şaumyan, Andronik, Dro, Nejde, Amazasp, Lalayans və başqalarının tör-töküntüləri olan Balayanlar, Aqambekyanlar, Kaputikyanlar, Sarkisyanlar, Petrosyanlar, Köçəryanlar sonradan bəşəriyyətdə misli görünməmiş Xocalı soyqırımını törətdilər.

Dünyaşöhrətli bəstəkar Üzeyir Hacıbəyovun 1919-cu ildə mart soyqırımının ildönümü ilə əlaqədar yazdığı "31 mart" adlı məqaləsində müasir günümüzdə də öz aktuallığını saxlayan bir fikri sonda xatırlatmaq yerinə düşərdi: "Bugünkü vəzifəmiz o qara günləri yaddan çıxarmamaqdır. Borcumuz bu Vətəni gələcəkdə hər cür təcavüzdən qorumaq və məmləkətimizi şərəflə yaşatmağa çalışmaqdır".

**Lalə ADİLQIZI,**
**"Azərbaycan Ordusu"**

*Qabaqcıl təcrübə*

# Onlar yenə də öndə olacaqlar



***Böyük Vətən müharibəsində "tank döyüşü" kimi məşhur döyüşlər çox olub. Elə erməni quldurlarına qarşı Qarabağ savaşında da tankçılarımızın rəşadətini çox görmüşük. "Döyüş nizamnaməsinin hər bəndi qanla yazılıb", - deyəndə burada böyük həqiqətin əks olunduğunu aydın görürük. Döyüşdən qələbə ilə ayrılmaq istəyən əsl komandir onu məğlubiyyətə düçar edən səbəbləri aradan qaldırmaqla, növbəti hərbi əməliyyatını uğurla başa vurmağın yollarını arayır. Çox sevindirici haldır ki, bu gün tankçılarımız yüksək döyüş hazırlıqları ilə seçilirlər.***

Cəbhə xəttində yerləşən əlahiddə hərbi hissənin tankçılarının peşəkarlığı, ordumuzun günbəgün artan döyüş qüdrətinin nümunəsidir. Mayor Səxavət Baxışov poliqondan yenicə gəlmişdi. Tank bölüyü döyüş-atışlı təlimi uğurla başa vurduğuna görə komandirin əhvalı şən idi. Söhbətimizdə zabit bildirdi ki, bu il "Döyüş hazırlığı" ilidir. "Ali Baş Komandanın, Müdafiə Nazirliyi rəhbərliyinin qarşımıza qoyduğu hər bir vəzifəni və döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə hazırıq. Bu səbəbdən də komandanlığın göstərişinə əsasən tez-tez poliqonda atışlar və təlimlər keçiririk".

Bacarıqlı tank komandirlərindən söz düşəndə "heç kəsi bir-birindən ayırmaq mümkün deyil", - deyə komandir sözünə davam edir. - Onların hər biri yetərincə hərbi biliyə və təcrübəyə malikdir.

Ancaq ən təcrübəli tankçılardan birinin adı çəkildi. Qarabağ veteranı, Ağdam, Ağdərə, Xocavənd uğrunda gedən döyüşlərin fəal iştirakçısı gizir Əzəddin Musayev.

Budur, bəstəboy, qarayanız tank komandiri ilə görüşürəm. Aydın sezilən şirin ləhcəsindən bilmək olur ki, Əzəddin qədim Şəki diyarının yetirdiyi dəyərli oğullardandır. Tankçı olmaq ən böyük arzusu olub. Peşəkar hərbçi kimi yetişməsinə səbəb də elə bu peşəyə olan marağından irəli gəlir. Gizir Ə.Musayev hərbi xidmət dövründə mükafatlara layiq görülüb. "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli medal da tank komandirinin arxivindəki nailiyyətlər sırasındadır. Şəkinin Aşağı Göynük kəndindən olan Əzəddinin ən böyük arzusu tezliklə Şuşanı, Xankəndini, digər erməni işğalı altında olan şəhər və rayonlarımızı azad görməkdir. Bunun üçün də komandiri olduğu tankla hər an döyüşə hazırdır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından Fəxri Məmmədov və Taleh Hüseynov təcrübəli gizirin tabeliyində olan bacarıqlı heyət üzvləridir. Tankçılar yaxşı bilirlər ki, hər an müharibə başlaya bilər. Buna görə də döyüşlərə atılmaq üçün yüksək bilik və təcrübəyə malik olmaq başlıca vəzifədir.

**Mayor Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

***Ölkəmizdə Azərbaycanın Milli Qəhrəmanlarının xatirəsi həmişə əziz tutulur, onların yubileyləri dövlət səviyyəsində qeyd edilir. Belə qəhrəmanlardan biri də Azərbaycan Silahlı Qüvvələrinin zabiti mayor Anatoli Nikolayeviç Davidoviçdir. Əgər o, yaşasaydı, martın 28-də 50 yaşı tamam olacaqdı. Lakin A.Davidoviç gəncliyinin ən gözəl çağında - 27 yaşında Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunması, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsi uğrunda gedən döyüşlərdə əbədi olaraq şəhidlik zirvəsinə ucalmışdır.***



# Belarus torpağında Azərbaycanın Milli Qəhrəmanının 50 illik yubileyi qeyd olunub

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, yubiley tədbirlərinin təşkili ilə bağlı Slutsk şəhərinə ezam edilmiş nümayəndəmiz öncə şəhər mərkəzi xəstəxanasına gedərək bir ay əvvəl ürəyində açıq cərrahiyyə əməliyyatı aparılmış şəhidin anası Kima Andreyevna ilə görüşüb, ona xalqımızın, Silahlı Qüvvələrin şəxsi heyətinin minnətdarlıq dolu salamlarını və Müdafiə Nazirliyinin yubiley töhfəsini çatdırıb.

"Dədə Qorqud" Milli Fondunun və "Azərbaycan Dünyası" beynəlxalq jurnalı redaksiya heyətinin təsis etdiyi "Mehriban ana" medalının oğlunun yubiley günündə anaya təqdim olunması onda xoş duyğular oyadıb.

K.Andreyevna növbəti dəfə diqqətdən kənarda qalmadığı, övladının unudulmadığı və xatirəsinin əziz tutulduğu üçün bir daha Azərbaycan xalqına minnətdarlığını bildirib.

Martın 28-də Müdafiə Nazirliyinin bilavasitə təşkilatçılığı ilə Milli Qəhrəmanın 50 illik yubileyi yüksək səviyyədə qeyd edilib.

Əvvəlcə tədbir iştirakçıları şəhər qəbiristanlığına gedərək qəhrəmanın məzarını ziyarət edib, üzərinə gül dəstələri qoyublar.

Anım mərasimini açan polkovnik Abdulla Qurbani qəhrəmanın qısa, lakin mənalı ömür yolundan danışaraq bildirib ki, A.Davidoviç 50 il öncə Minsk vilayətinin Kopolskiy rayonunun Skobin kəndində anadan olub. Sonra ailələri ilə birlikdə Slutsk şəhərinə köçən Anatoli burada S.F.Rubanov adına orta məktəbi bitirib, Ukraynadakı Sumı Ali Artilleriya Məktəbində təhsil alıb, SSRİ-nin Almaniyadakı Qoşun Qrupunda taqım komandiri kimi xidmətə başlayıb.

1989-cu ildə Zaqafqaziya Hərbi Dairəsinə - Gəncə şəhərinə göndərilmiş gənc zabit burada artilleriya hərbi hissələrindən birində xidmətini davam etdirib. Xocalı faciəsindən sonra isə könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrinə daxil olmuşdur.

Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə



ona "mayor" hərbi rütbəsi verilmiş, artilleriya hissələrindən birinə qərargah rəisi təyin edilmişdir. Milli artilleriyaçı kadrların hazırlanmasında səylərini əsirgəməyən mayor A.Davidoviç tabeliyindəki şəxsi heyətlə birlikdə mütəmadi olaraq Tərtər, Ağdam, Goranboy və Füzuli bölgələrində döyüş tapşırıqlarını yerinə yetirmişdir.

1992-ci ilin iyun ayında Ağdam bölgəsində qanlı döyüşlər gedərkən o, xüsusi qəhrəmanlıq nümunələri göstərərək düşmənin texnika və canlı qüvvə sarıdan xeyli itkilər verməsinə nail olmuşdur. Lakin döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanmış mayor A.Davidoviçə vaxtında ilk yardım göstərilməsinə, helikopterlə Bakıya hərbi hospitala çatdırılmasına və həkimlərin səylərinə baxmayaraq, onu ölümün pəncəsindən xilas etmək mümkün olmamışdır.

Ölümündən az sonra, 1992-ci il iyulun 3-də Belarus Respublikasının müstəqilliyi günündə mayor A.Davidoviçə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Slutsk şəhər İcraiyyə Komitəsi sədrinin müavini Larisa Georgiyevna Dobrovolskaya anım mərasimində çıxış edərək Azərbaycan və Belarus xalqlarının dostluq və qardaşlıq münasibətlərinin daha da genişləndiyindən söhbət açıb, azərbaycanlıların da Böyük Vətən müharibəsi illərində Belarusun faşist işğalçılarından azad edilməsində müstəsna xidmətlərini qeyd edib, görkəmli sərkərdələrimizin, azərbaycanlı Sovet İttifaqı Qəhrəmanlarının adlarını iftixar hissilə çəkib və bildirib ki, Azərbaycan xalqı Belarusdan olan qəhrəmanını unutmadığı kimi, belaruslar da bu torpaqlar uğrunda həlak olan yüzlərlə azərbaycanlı döyüşçünün xatirəsini həmişə əziz tuturlar.

Uzun illərdir ki, Belarus Respublikasında yaşayan azərbaycanlı ziyalılar - Belarus Azərbaycan İcmaları Konqresinin fəalları İlham Hacıyev, Mirəli Mirəliyev, Elman Mahmudov, Zaur Tərlanov çıxışlarında şəhidin ailəsi ilə daim əlaqə saxladıqlarını, onların problemlərinin həlli istiqamətində həmişə yardımçı olduqlarını vurğulayıblar.

Milli Qəhrəmanın qardaşı Aleksandr ay yarım Azərbaycanda, Ağdam uğrunda döyüşlərdə Anatoliy Davidoviçlə bir səngərdə olduğunu xatırlayıb, hər cür təcavüzə, işğala, terrora nifrət etdiyini bildirib.

Həkimlərin ciddi nəzarətinə baxmayaraq, mərkəzi xəstəxanadan çıxaraq birbaşa anım mərasiminə gəlmiş şəhid anası Kima Andreyevna Azərbaycan rəhbərliyinə, Azərbaycan xalqına, tədbirin təşkilatçılarına oğlunun 50 illik yubileyini doğma Vətənində yüksək səviyyədə keçirdiklərinə görə bir daha dərin təşəkkürünü bildirib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə Milli Qəhrəmanın anasının 1994-cü ildə ulu öndərimiz Heydər Əliyevlə görüşdüyü barədə xatirələri iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Bildirilib ki, bu yaxınlarda Gəncə şəhər İcra Hakimiyyəti başçısının sərəncamı ilə şəhərin mərkəzi küçələrindən birinə mayor Davidoviçin adı verilmişdir. Bir neçə gündən sonra həmin küçənin başlanğıcındakı binaya qəhrəmanın barelyefi vurulacaq, küçənin təntənəli açılışı olacaq, Milli Qəhrəmanın 4 il yaşadığı və xidmət etdiyi Gəncə şəhərində yubiley mərasimi keçiriləcəkdir. Həmin yubiley tədbirinə dəvəti Davidoviçlər ailəsi onlara göstərilən diqqət və qayğının yeni bir təzahürü kimi qiymətləndiriblər.

Həmin gün Azərbaycanın Milli Qəhrəmanı mayor Davidoviçin vətənində "Belarus oğlu, Azərbaycan qəhrəmanı" sənədli filminin son kadrları çəkilmiş və müsahibələr alınmışdır.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Xəbərlər:
## hadisələr, faktlar

### Fars körfəzi ölkələri Yəməndə yerüstü hərbi müdaxiləyə hazırlaşırlar



Səudiyyə Ərəbistanı və onun müttəfiqləri Yəməndəki şiə qiyamçılarının mövqelərinə hava zərbələri endirməyə başlayıblar. AzərTAc Rusiyanın NTV telekanalına istinadla xəbər verir ki, hərbi əməliyyatlar Yəmən prezidenti Abdu Hadinin xahişindən sonra başlayıb. Əməliyyatlara başlamaq barədə əmri Səudiyyə Ərəbistanının kralı verib və bunun üçün 100 qırıcı təyyarə,150 min hərbi qulluqçu ayırıb. ABŞ münaqişənin dinc yolla həllində uzun müddət təkid etsə də, sonda hərbi əməliyyatları təqdir edərək kəşfiyyat və məsləhətlə kömək göstərməyə hazır olduğunu bildirib.

Bir çox dövlətlər bu ölkədəki səfirliklərini bağlayıb və diplomatlarını geri çağırıblar. Artıq Türkiyə də əməliyyatlara qoşulmaq niyyətini bəyan edib. Yəməndə müharibənin əleyhinə hələlik yalnız İran, İraq və Rusiya çıxış edirlər.

### Bolqarıstan prezidenti Qələbənin 70 illiyi münasibətilə Moskvaya gəlməkdən imtina edib



Bolqarıstan Prezidenti Rosen Plevneliyev Böyük Vətən müharibəsində qələbənin 70 illiyi münasibətilə Moskvada keçiriləcək yubiley tədbirlərinə qatılmayacaq.

APA-nın məlumatına görə, Bolqarıstan prezidentinin mətbuat xidmətindən bildirilib ki, prezident Rosen Plevneliyev yubiley tədbirlərinə dəvət alıb, lakin onun Moskvaya səfəri planlaşdırılmır.

Qeyd edək ki, artıq Almaniya kansleri Angela Merkel, Böyük Britaniyanın baş naziri Devid Kemeron, Avropa İttifaqı Şurasının sədri Donald Tusk və digər liderlər Moskvada keçiriləcək yubiley tədbirlərində iştirak etməyəcəklərini açıqlayıblar.

### "Opel" Rusiyanı tərk edir

ABŞ-ın "General Motors" korporasiyasının Almaniyadakı törəmə müəssisəsi olan "Opel" avtomobil şirkəti Rusiyada onun məhsullarına tələbatın kəskin azalması ilə əlaqədar bu ölkəni tərk edir.

"Opel"in rəhbəri Karl-Tomas Noyman bu günlərdə bildirib ki, Sankt-Peterburqdakı zavodda istehsal 2015-ci ilin sonunda dayandırılacaq. Noyman "Handelsblatt" qəzetinə müsahibəsində qeyd edib ki, konsernin rəhbərliyinin qənaətinə görə, Rusiya bazarında nəinki ən yaxın perspektivlər, hətta ortamüddətli və uzunmüddətli perspektivlər də kəskin pisləşib.

### Serbiya NATO-ya daxil olmaq niyyətində deyil



Serbiya neytral ölkədir və NATO-ya daxil olmaq məqsədi yoxdur.

Serbiya Baş nazirinin müavini və xarici işlər naziri İvitsa Daçiç ölkənin Pink telekanalına müsahibəsində bu barədə məlumat verib. İ.Daçiç qeyd edib ki, Serbiya Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planı çərçivəsində NATO ilə əməkdaşlıq edir, lakin bu, ölkənin neytrallıq məsələsində mövqeyinin dəyişməsi demək deyil. "Biz hərbi baxımdan neytralıq və NATO-ya üzv olmaq niyyətimiz yoxdur", - deyə nazir əlavə edib.

Xatırladaq ki, Serbiya parlamenti 2007-ci ildə hərbi ittifaqlarla bağlı neytrallığa dair qətnamə qəbul edib. Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planı çərçivəsində NATO ilə əməkdaşlıq haqda qərar isə rəsmi Belqrad tərəfindən 2014-cü ilin dekabrında qəbul olunub.

### Pakistanın Tirax vadisində 80 terrorçu məhv edilib




Pakistanın Peşəvər şəhəri yaxınlığındakı Tirax vadisində hərbçilərin "Təhriki-Taliban Pakistan" terror təşkilatının "Laşkari-İslam" qruplaşmasının üzvləri ilə toqquşması nəticəsində azı 80 terrorçu məhv edilib.

Hərbçilərin yaydığı məlumata görə, toqquşmada 100-dən artıq terrorçu yaralanıb.

Xatırladaq ki, Pakistan hərbçiləri ötən ilin sonlarından Şimali Vəziristan əyalətindəki qruplaşmalara qarşı güclü əməliyyatlara başlayıb. Belə ki, "Əl-Qaidə", "Taliban", "Şərqi Türküstanın İslam Hərəkatı", "Özbəkistan İslam Hərəkatı" kimi terror təşkilatlarının 1200-dən artıq üzvü məhv edilib.

### NASA elektriklə işləyən təyyarə hazırlayır

ABŞ-ın Aerokosmik Agentliyi - NASA elektriklə işləyən təyyarənin hazırlanmasına başlayıb.

NASA-nın yaydığı məlumatda bildirilir ki, təyyarə 18 kiçik pərli mühərriklə təchiz olunacaq. Mühərriklər uzunluğu 9,5 metr olan qanadlarda yerləşəcək. Hazırda qanadların yük avtomobili üzərində sınaqları aparılır. Təyyarənin tam sürətinin saatda 320 km olması nəzərdə tutulub.

### Tunisdə törədilmiş terror aktında şübhəli bilinən 20 nəfər həbs olunub



Tunisin hakimiyyət orqanları "Bardo" muzeyində törədilmiş terror aktı ilə əlaqədə şübhəli bilinən 20-dən çox insanı həbs edib.

Reuters agentliyi xəbər verir ki, Tunis Daxili İşlər Nazirliyinin məlumatına görə, həbs olunanların 10 nəfəri terror aktında bilavasitə iştirak edən şəxslərdir.

Son məlumatlara əsasən, terrorçuların "Bardo" muzey kompleksinə hücumu nəticəsində 24 nəfər ölüb, 40-dan çox turist yaralanıb.

Ötən şənbə günü Tunisdə həlak olan 4 İtaliya vətəndaşının cəsədi Romaya gətirilib. Aeroportda keçirilən matəm mərasimində İtaliyanın Baş naziri Matteo Rentsi iştirak edib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Artilleriyaçıların öz yeri var

***Silahlı Qüvvələrimizin bütün qoşun növləri üzrə inkişaf etdirilməsi döyüş hazırlığının yüksək səviyyədə aparılmasına əlverişli şərait yaradır. Bu sıradan artilleriyaçılarımızın uğurları da həmişə diqqət çəkir. Onlar bu vacib peşənin layiqli davamçıları kimi öhdələrinə düşən vəzifələri yerinə yetirməklə, döyüş təcrübələrini müntəzəm surətdə artırırlar.***





Döyüş yolu keçmiş bu hərbi hissə 1992-ci ildə həyata vəsiqə alıb. Düşmənə qarşı döyüşlərdə yaxından iştirak edən topçular Ağdam, Füzuli, Qazax, Tərtər, Tovuz bölgələrində torpaqlarımızın müdafiəsində mərdliklə dayanıblar. Düşmən hücumlarının qarşısının alınmasında fəal iştirak ediblər. Onlardan bir neçəsi döyüş əməliyyatlarında fərqləndiyinə görə mükafatlara layiq görülüb. Şəxsi heyət ata-babalarımızın qəhrəmanlıq, vətənpərvərlik ənənələrini davam etdirmək üçün təlim və məşğələlərdən səmərəli istifadə edirlər. İctimai-siyasi hazırlıq məşğələləri də əsgər və zabitlərin vətənpərvərlik ruhunun yüksəldilməsinə xidmət edir. Xalqımızın xilaskarı, ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin öyrənilməsi də şəxsi heyəti nümunəvi xidmətə ruhlandırır. Zabit Mansur İbadov bildirir ki, ümummilli liderin irsinin öyrənilməsi fəaliyyətimizdə əsas yer tutur. Bu məqsədlə təşkil olunan məşğələlər həmişə yüksək fəallıq şəraitində keçir. Bu gün şəxsi heyətimiz dahi rəhbərin ideyalarının həyata keçirilməsi üçün öz bacarıqlarını əsirgəmir.

Ötən ili uğurla yola salan artilleriyaçılar yeni dərs ilinə də əzmlə başlayıblar. Artilleriya hərbi hissələri arasında öncüllüyü qorumağa çalışdıqlarını deyən mayor Coşqun Əzizov ordumuzun döyüş qabiliyyətinin yüksək olduğunu deməklə artilleriyaçıların istənilən əmri yerinə yetirməyə qadir olduqlarını xüsusi vurğulayıb.

Azərbaycan zabiti adını qürurla daşıyan mayor Coşqun Əzizov xidmət etdiyi hərbi hissənin yetirməsidir. Vətən torpaqlarının azadlığı uğrunda döyüşlərdə iştirak edən Coşqun taleyini ordu həyatı ilə bağlamağa qərar verib. O deyir:

- Qarşımızda duran əsas vəzifə Vətənimizin ərazi bütövlüyünü təmin etməkdir. Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bir kəlamını yada salmaq yerinə düşər: "Bu gün Azərbaycanın öz dövlətini və torpaqlarını qoruya biləcək güclü ordusu var". Mən bir zabit kimi Vətənə xidmət edən insanlar sırasında olmağımdan qürur duyuram. Ötən il "Ən yaxşı səhra vərdişli divizion komandiri" yarışmasında da birinci yerə layiq görülmüşük.

Döyüş hazırlığında fərqlənən zabitlərin şəkli hərbi hissənin şərəf lövhəsinə vurulur. "Onlar bizim fəxrimizdir" adlı stenddə nümunəvi xidmətləri ilə seçilən zabitlər Nicat Məhərrəmovun, Vüsal Əmirovun, Şamil Səlimovun, Asif Pirəliyevin, Ceyhun Əliyevin, İlham Şəkərovun, Azad Səfərovun və gizirlər Rauf Omarovun, Sadif Müslümovun şəkilləri yer alıb. Onların gərgin əməyinin bəhrəsidir ki, yeni dərs ilinə də artilleriyaçılar yeni uğurlarla başlayıb. Kəşfiyyatçılar, topogeodeziyaçılar, hesablayıcılar, tuşlayıcılar hər yarışmada öz bilik və bacarıqlarını bir daha nümayiş etdiriblər. Verilən tapşırıqları müvəffəqiyyətlə yerinə yetirənlər qalib adını qazanıblar.

Elnur Namazov nümunəvi əsgər olmaqla həm də ən yaxşı kəşfiyyatçı hesab olunur. Şəki rayonunun yetirməsi olan Elnur 6 aydır ki, hərbi xidmətdədir. Az vaxt ərzində kəşfiyyatçı kimi formalaşıb. Komandanlıq tərəfindən ailələrinə təşəkkür məktubu da ünvanlanıb. Vətənə layiq övlad böyütdüklərinə görə valideynlərinə hərbi hissə komandanlığı minnətdarlığını bildirib.

Arzu Faiq oğlu kiçik çavuşdur. Ağsu rayonundan olan Arzu topogeodeziyaçı kimi vəzifəsinin öhdəsindən bacarıqla gəldiyinə görə qaliblər sırasındadır. Kiçik çavuş deyir:

- Bizə göstərilən qayğıya, köməyə görə komandirlərimizə minnətdaram. Onların sayəsində hərbi biliklərə yiyələnmişəm.

Hesablayıcılar sırasında qalib adını qazanan isə Yardımlı rayonundan hərbi xidmətə çağırılmış Quluyev Dilqəm Nəcəf oğludur. O da silahdaşları kimi Vətən andına sədaqətli olduğunu bildirir:

- Hər kəs Vətən qarşısında müqəddəs borcunu yerinə yetirməklə qəhrəman, yenilməz oğulların - Mübarizlərin, Fəridlərin davamçısı olmalıdır.

Bakı şəhərindən olan Bahəddin Əliyev tuşlayıcılar arasında qalib adını qazanıb. Nümunəvi əsgər kimi tanınır. O, ürək sözlərini belə ifadə edir:

- Nümunəvi xidmət üçün hərtərəfli şərait yaradılıb. Komandirlərimiz mahir topçular kimi formalaşmaq məqsədilə bizə diqqət və qayğı göstərirlər. Qısa müddət ərzində ordu həyatına alışaraq döyüş silahlarından istifadə qaydalarını mənimsəmişik. İstənilən döyüş tapşırığına əməl etməyə hazırıq.

Qaliblərlə söhbətimizdən də bir daha əmin olduq ki, ordumuzun bütün qoşun növlərində xidmət edən fədakar oğullar Vətən torpaqlarının işğaldan azad edilməsi üçün döyüş əmrinə hazırdırlar.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

*Heydər Əliyev irsini öyrənirik*

# Dahi rəhbərə ehtiram

***Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin öyrənilməsi üçün "N" hərbi hissəsində də məşğələlər, dərslər keçirilir.***

Əsgər və zabitlər bu məşğələlərdə fəal iştirak edirlər. Siyasi fəaliyyəti, zəngin ömür yolu örnək olan ulu öndərin Vətənimiz, xalqımız qarşısında misilsiz xidmətləri, ölkəmizin müstəqilliyinin qorunmasında, iqtisadi-siyasi cəhətdən yeni dövrə qədəm qoymasında yorulmaz fəaliyyəti haqqında onlara ətraflı məlumatlar verilir. Müstəqilliyimizin və dövlətçiliyimizin etibarlı dayağı olan Silahlı Qüvvələrimizin formalaşması, monolit qüvvəyə çevrilməsi ulu öndərimizin xalqımız, Vətənimiz qarşısında böyük xidmətlərindəndir.



Bu günlərdə hərbi hissənin şəxsi heyəti Gəncə şəhərindəki Heydər Əliyev Mərkəzini ziyarət edib. Onlar burada dünya şöhrətli siyasətçinin həyatını və fəaliyyətini əks etdirən eksponatlarla yaxından tanış olublar. Mərkəzin əməkdaşları ulu öndərin ölkəmizə rəhbərlik etdiyi illərdə respublikamızın iqtisadi, elmi və mədəni sahələrində, həmçinin, orduya göstərdiyi diqqət və qayğıdan geniş söhbət açıblar.

Qeyd ediblər ki, ölkəmizdə hərbi təhsilin yaradılması da ulu öndərin adı ilə bağlıdır. Onun təşəbbüsü ilə ilk dəfə Bakıda ibtidai hərbi məktəb yaradılıb, azərbaycanlı gənclərin keçmiş SSRİ-nin ali hərbi məktəblərində təhsil almalarına geniş imkanlar açılıb. Hazırkı dövrdə ordumuzun müasir tələblər səviyyəsində qurulmasında Heydər Əliyev Məktəbinin yetirmələrinin böyük xidmətləri olub.




Hərbi qulluqçular Heydər Əliyev Mərkəzindən xoş təəssüratla ayrılıblar.

**Mübariz MUSAOĞLU,
"Azərbaycan Ordusu"**

# Liseydə sərgi

***Yaradıcılıq həmişə xoş duyğular doğurur. Bu və ya digər mövzunun sözlə, rənglə, musiqi ilə ifadəsi, əslində, insanların duyğusuna ünvanlanır. Düşündürücü əsərlərin aşıladığı ideyalar milli-xəlqi ruhun yaşarlılığının təsdiqidir. Bu baxımdan rəngkarlıq daha cəlbedicidir. Zamanında Səttar Bəhlulzadənin, Maral Rəhmanzadənin, Tahir Salahovun, Vəcihə Səmədovanın, Toğrul Nərimanbəyovun və başqalarının yaratdığı əsərlər Azərbaycanı dünyaya tanıdıb.***



Belə bir zəngin ənənəyə malik olan respublikamızda bu sahə də inkişaf etdirilir, yeniyetmələrin, gənclərin rəngkarlıqla (qrafika, portret, mənzərə və s.) məşğul olmasına hərtərəfli qayğı göstərilir.



Bu günlərdə Azərbaycan Rəssamlar İttifaqı rəyasət heyəti üzvlərinin, eləcə də, tanınmış rəssamların əsərlərindən ibarət sərgi nümayiş etdirilib. Rəssamlar İttifaqının sədri xalq rəssamı Fərhad Xəlilov çıxış edərək bildirib ki, bu tədbirin müdavimlərin həyatında mühüm rol oynayacağına, onların dünyagörüşünün formalaşmasına təsirsiz ötüşməyəcəyinə inanırıq. "Belə tədbirlərin mahiyyəti Vətən, torpaq sevgisinin müqəddəsliyinin təzahürüdür və biz bundan sonra da bu qəbil tədbirlərin keçirilməsini təmin edəcəyik".

Sərgidə nümayiş etdirilən əsərlər Hərbi Liseyə hədiyyə edilib.

**"Azərbaycan Ordusu"**

*Əlağa Şıxlinski - 150*

# "Hazırkı dövrün insanlarının gözünə təmiz, vicdanla dik baxıram"



***Artilleriyanın Allahı sayılan general Əlağa Şıxlinskinin Azərbaycan milli ordusunun yaranmasında əvəzsiz xidmətləri olub.***

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra milli ordu hissələri Qırmızı Ordunun tərkibinə daxil edilir. Azərbaycan Xalq Cümhuriyyəti Hərbi nazirinin müavini tam artilleriya generalı Əlağa Şıxlinski qısa müddət Qırmızı Ordu sıralarında xidmətini davam etdirir. Lakin Gəncədə baş verən hərbi yönümlü antisovet üsyanından sonra qırmızı terrorun qara buludları təcrübəli generalın da başı üzərini alır və o, 1920-ci ilin iyununda bolşevik həbsinə məruz qalır. Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun müdaxiləsi ilə general Ə.Şıxlinski azad edilir.

1920-ci ilin avqustunda çar ordusunun tanınmış generalları - sonradan milli hökumətin hərbi rəhbərləri olmuş Əlağa Şıxlinski və Səməd bəy Mehmandarov Baş Qərargahda işləmək üçün Moskvaya göndərilərkən N.Nərimanov V.İ.Leninə yazırdı ki, biz onları qərargahda işləmək üçün Sizin sərəncamınıza göndəririk. Çünki hərbi mütəxəssis kimi onlar əvəzedilməzdir. Onlardan biri - Şıxlinski çar ordusunda "Artilleriyanın Allahı" hesab olunurdu. General Ə.Şıxlinski 1920-ci ilin avqustundan 1921-ci ilin iyulun 18-dək Moskvada Ali Artilleriya məktəbində dərs deyir və Petroqrad Topçu Akademiyasında mühazirələr oxuyur.

1921-ci ilin yayında hər iki general - Ə.Şıxlinski və S.Mehmandarov yenidən Azərbaycana qayıdıb Xalq Hərbiyyə və Bəhriyyə Komissarlığında xidmətə qəbul edilirlər. Görkəmli hərb xadimi Ə.Şıxlinski Azərbaycan komanda heyəti məktəbində topçuluqdan Azərbaycan dilində dərs deməyə başlayır və həmçinin, Bakı qarnizonu hərbi-elmi cəmiyyətinin sədr müavini seçilir. O, cəmiyyətdə çalışarkən müxtəlif vaxtlarda hərb elmi üçün böyük əhəmiyyət kəsb edən "Gələcək müharibələrdə toplar", "Polk topları haqqında", "Topların piyada və atlılarla qarşılıqlı əhəmiyyəti", "Dağlıq yerdə topların əməliyyatı" və s. gərəkli mövzularda məruzələr edir. 1924-cü ildə isə onun Styopin diviziyası üçün "Topçuların dağlıq yerdə atəş xüsusiyyətləri" haqqında məruzəsi dinlənilib.

General Ə.Şıxlinski komandir və hərbi rəislər üçün milli kadrlar hazırlayan kursların, məktəblərin, ali tədris müəssisələrinin təşkilində də fəal iştirak edib. O, 1923-cü ilin aprel ayında nəşr olunan "Kommunist" qəzetinin 9, 10, 11-ci saylarında "Gələcək müharibədə toplar" silsilə məqalələrini dərc etdirir. Onun çoxsaylı elmi məqalələri komandirlər üçün qiymətli tədris vəsaiti idi. 1924-cü ildə Azərbaycan komanda heyəti məktəbinin rəis müavini seçilən general Ə.Şıxlinski bir il sonra - 1925-ci ildə Azərbaycan Hərbi tərcümə kollegiyasının baş redaktoru təyin olunur. Artilleriya nəzəriyyəsinə yeniliklər - "Şıxlinski üçbucağı", "Şıxlinski formulu"nu gətirən general "Cəbhədə səhra toplarının işlədilməsi" kitabını və "Rusca-türkcə müxtəsər hərbi lüğət"i nəşr etdirir. Azərbaycanın hərb tarixində ilk kamil hərbi lüğət sayılan "Rusca-türkcə müxtəsər hərbi lüğət"in hazırlanmasına görə Ə.Şıxlinski fəxri fərmanla təltif edilir. Yorulmadan çalışan təcrübəli generalın 1927-ci ildə "İşçi-kəndli Qızıl ordu topçusunun döyüş təlimnaməsi" elmi əsəri işıq üzü görür.

1928-ci ildə "Hərbi bilik" jurnalının beşinci və altıncı saylarında silsilə hərbi-elmi məqalələrlə çıxış edən general səhhəti ilə əlaqədar istefaya çıxsa da, elmi-pedaqoji fəaliyyətini dayandırmır.

1942-ci ildə görkəmli filosof-alim, o zaman SSRİ Elmlər Akademiyası Azərbaycan filialının sədr müavini Heydər Hüseynovun təklifi ilə Ə.Şıxlinski öz xatirələrini qələmə almağa başlayır. General tərəfindən diktə olunaraq qələmə alınan ilk hərbi memuar - "Xatirələrim" müəllifin ölümündən bir il sonra, 1944-cü ildə rus və Azərbaycan dilində çap olunur.

Görkəmli hərbi şəxsiyyət general Ə.Şıxlinskinin yaşadığı dövrün tarixi hadisələrinin onun həyatında özünəməxsus rolu olub. Görkəmli sərkərdə, istedadlı alim, alovlu vətənpərvər hərbçinin "Xatirələrim"dəki "hazırkı dövrün insanlarının gözünə təmiz, vicdanla, dik baxıram", sözləri əslində onun ömür yolunun təsdiqidir.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

*Faşizm üzərində qələbə - 70*

# Tarixi zəfərdə xalqımızın öz payı var

***Alman faşizmi üzərində Qələbənin bu yaxınlarda 70 illiyi tamam olacaq. Mayın 9-da bütün tərəqqipərvər bəşəriyyət bu tarixi hadisəni təntənə ilə qeyd edəcək.***

20-ci yüzilliyin ən dəhşətli müharibəsi kimi yadda qalan İkinci Dünya müharibəsi Azərbaycan xalqının da tarixində silinməz izlər qoyub. Müharibə alovunun Sovet İttifaqını bürüdüyü günlərdə xalqımız da silaha sarılaraq ölkənin müdafiəsinə qalxdı.

İşğalçılıq məqsədi ilə faşizmin başladığı və dünyanın əksər böyük dövlətlərinin qatıldığı müharibə, sözün həqiqi mənasında, fəlakətə çevrilmiş, milyonlarla günahsız insan amansızlıqla məhv edilmiş, böyük şəhərlər xarabazarlığa çevrilmiş, mədəniyyət inciləri sayılan abidələr yerlə-yeksan edilmişdir. Bu günə qədər dəhşətli müharibənin yaraları sağalmayıb və hələ də elə ölkələr, insanlar var ki, müharibənin ağrı-acılarını daşımaqdadırlar.

İkinci Dünya müharibəsi başlayanda keçmiş Sovetlər Birliyinə daxil olan müttəfiq respublikalardan biri kimi Azərbaycan da maddi və insani resursları ilə düşmənə qarşı mübarizəyə qalxmışdı. Təkcə onu demək kifayətdir ki, Sovet hərbi texnikasının 70 faizindən çoxu Bakı neftinin hesabına hərəkətə gətirilirdi.

Müharibə illərində ölkəmizin əhalisi arasında da geniş səfərbərlik aparılmış, yüz minlərlə soydaşımız cəbhəyə yola salınmışdı. Onu da qeyd edim ki, çar Rusiyasının tərkibinə qatıldıqdan və bolşeviklər hakimiyyətə gəldikdən sonra parçalanmış, qonşu respublikalara verilmiş ərazilərdə yaşayan azərbaycanlılar da müharibəyə səfərbər edilmişdilər. Təəssüflər olsun ki, müharibəyə yola salınan soydaşlarımızın yarısı ağır döyüşlərdə həlak oldu və yurd-yuvasına qayıtmadı.

Azərbaycanın mərd oğul və qızları qələbə naminə canlarından keçdilər. Soydaşlarımızdan təşkil olunmuş neçə-neçə diviziya müharibə cəbhələrində ümumi qələbə üçün öz töhfəsini vermişdir.







Xəzərin sahillərindən Belarus, Ukrayna cəbhələrinə yollanan Azərbaycan oğul və qızlarının göstərdikləri şücaətlə hər birimiz fəxr edə bilərik. Onlar doğma Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda mərdlik və fədakarlıqla vuruşurdular. Respublikamızı təmsil edən 170 mindən çox döyüşçü orden və medallarla təltif edilmiş, 130 nəfər vətəndaşımız isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Buna görə də faşizmin diz çökdürülməsində və böyük Qələbənin qazanılmasında xalqımızın öz payı vardır.

Hələ Sovet dövründən məşhur olan və müharibədən söz düşəndə tez-tez xatırlanan "Heç kəs unudulmur, heç nə yaddan çıxmır" devizi dünyanı faşizm taunundan xilas etmiş insanların ruhuna hörmət əlaməti kimi bu gün də öz aktuallığını saxlamaqdadır. Ölkəsini sevən, öz xalqının azadlığını və Vətəninin düşməndən müdafiəsini dəyərləndirən insanlar üçün İkinci Dünya müharibəsi qurbanlarının xatirəsi əzizdir.

Böyük qələbə uğrunda canından keçmiş insanların unudulmaması, doğrudan da, sonrakı nəsillərin müqəddəs vəzifəsidir. Həm də ona görə ki, müstəqilliyini bərpa etdikdən sonra erməni təcavüzü ilə üz-üzə qalmış Azərbaycan məkrli qonşularımız tərəfindən elan olunmamış müharibədə minlərlə itki verdi və nəticədə torpaqlarımızın 20 faizini itirdik. Qarabağ müharibəsində də xalqımızın vətənpərvər oğul və qızları Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçdilər.

Müharibənin və qələbənin nə olduğunu Azərbaycan xalqı bütün gerçəkliyilə başa düşür. İnanırıq ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə torpaqlarımız erməni işğalçılarından azad olunacaq. Və dövlət başçısının dəfələrlə vurğuladığı kimi, Azərbaycanın üçrəngli bayrağı Şuşanın, Xankəndinin, Laçının, Kəlbəcərin... səmasında vüqarla dalğalanacaq.

**Əbülfət QASIMOV,
"Azərbaycan Ordusu"**

# Qaliblər mükafatlandırılıb

Şəxsi heyətin asudə vaxtının səmərəli təşkil edilməsi üçün Hərbi Dəniz Qüvvələrində müntəzəm olaraq kütləvi idman tədbirləri keçirilir. Bu günlərdə futbol üzrə keçirilən yarışlar hər kəsin ürəyincə olub. 2-ci dərəcəli kapitan Nəsib Qurbanov yarışın keçirilməsi barədə iştirakçıları təlimatlandırıb. Birinciliyi AFFA-nın milli dərəcəli hakimi Nahid Xasıyev idarə edib.



Bir neçə gün davam edən yarışlar gərgin keçib. Futbolçular təmsil olunduqları komandalara yaxşı nəticələr qazandırmaq məqsədilə səylə mübarizə aparıblar. Nəhayət, yarışlar başa çatıb və qaliblər müəyyənləşdirilib. Qalib komandalara kubok və fəxri fərmanlar təqdim olunub.

Hərbi Dəniz Qüvvələri Komandanlığı adından çıxış edən polkovnik-leytenant Hafiz Həsənov qalibləri təbrik edərək onlara növbəti sınaqlarda uğurlar arzulayıb.

**"Azərbaycan Ordusu"**

# Cəldlik, çeviklik, sərrastlıq

## Silahlı Qüvvələrin hərbiləşdirilmiş kross birinciliyi keçirilib

***Yarışa müxtəlif qoşun növlərinə məxsus 15 komanda və 50-dək idmançı qatılaraq birinciliyin medalları uğrunda mübarizə aparıb.***

Pentatlon kimi hərbiləşdirilmiş kross da idmançılarda cəldlik, çeviklik yanaşı, hərbçilər üçün olduqca vacib keyfiyyətlər - sərrastlıq, silahlardan düzgün istifadə bacarığı tələb edir. Ona görə bu idman növünün populyarlığı hərbçilərin peşəkarlıq qazanmasında mühüm önəmə malikdir.

15 komandanın qatıldığı yarışda hər komandadan 3 idmançı 3 kilometr məsafəyə qaçaraq qalibləri müəyyənləşdirməli idi. Birincilikdə iştirak edən hər bir hərbi qulluqçu qalib olmaq üçün öz gücünü sınamaq və nəyə qadir olduğunu göstərmək imkanı qazanmışdı.

Yarışın qaydalarına uyğun olaraq hərbçilər silahla müəyyən edilmiş məsafəni qət etməli, atəş yerində hədəfə 3 dəfə tək-tək atəş açmalı idi. Bu mərhələni keçmiş idmançı növbəti mərhələdə artıq üç qumbaranı hədəfə atmalı və qaçışı davam etdirərək finişə çatmalı idi.




Əgər silahdan atəş açarkən hədəfi vurmadığı və ya qumbara atarkən 40 metrdən az məsafəyə atdığı halda, müvafiq olaraq 20 və ya 10 saniyə ümumi nəticəsindən çıxılırdı.

İdmançıların nəticələri iki - həm fərdi, həm də komanda hesabında birinciliyi idarə edən hakimlər tərəfindən nəzərə alınırdı. Komanda hesabında ən yaxşı nəticə qazanan idmançının göstəricisi qeydə alınırdı və bunlara əsasən, komandaların xalları hesablanaraq birincilikdə yerlər müəyyən edilirdi.

Birincilik başa çatdıqdan sonra Müdafiə Nazirliyi fiziki hazırlıq və idman bölməsinin rəisi polkovnik-leytenant Sadiq Paşayevlə görüşüb nəticələr barədə fikrini öyrəndik.

- Havanın bir qədər sərt keçməsinə baxmayaraq, birincilik idman mübarizəsi şəraitində keçdi, - polkovnik-leytenant dedi. - İdmançılar həm fiziki hazırlıq baxımından, həm də sərrastlıq baxımından nəyə qadir olduqlarını nümayiş etdirdilər. Hesab edirəm ki, ən güclülər bu birincilikdə də medallara layiq yerləri tutdular. Kimlər daha yaxşı hazırlaşmışdılarsa, onlar da yüksək yerləri tutdular.

Komanda hesabında birinci yerə "Bərdə" komandası çıxdı. Qeyd edim ki, ötən il də "Bərdə" komandası ümumi hesabda birinciliyin qızıl medalına sahib çıxmış və keçici kuboku qazanmışdı. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin yetirmələri ümumi nəticəyə əsasən birinciliyin gümüş medallarını qazandılar. Nəhayət, birincilikdə üçüncü mükafata layiq yeri isə Hərbi Hava Qüvvələrinin idmançıları tutdular.

- Əvvəllər birincilikdə gərgin mübarizə, əsasən, böyük hərbi hissələrin komandaları arasında gedirdisə, indi digər hərbi hissələrin idmançıları da onlarla ciddi rəqabət aparırlar, - polkovnik-leytenant Sadiq Paşayev əlavə edir. - Silahlı Qüvvələrimizin hərbiləşdirilmiş kross birinciliyi dediyimizi bir daha sübut edir. Əvvəllər Hərbi Hava Qüvvələrinin idmançıları nadir hallarda yüksək yerlərə iddia edirdilər. Amma onlar son birinciliklərdə mükafat uğrunda ciddi mübarizə apardılar.

Silahlı Qüvvələrimizin hərbiləşdirilmiş kross birinciliyində fərdi hesabda birinci yerə "Bərdə" komandasının idmançısı əsgər Tacəddin Şahmarlı layiq görüldü. Hərbi Hava Qüvvələrinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Murad İlmanov finişə ikinci çatdığından gümüş medal qazandı. "Şəmkir" komandasını təmsil edən əsgər Əli Bayramov isə birinciliyin bürünc medalına yiyələndi.

**Ə.MƏHƏRRƏMOĞLU,
"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 323
Nüsxə 4600